

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

İyul - 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “İSLAHATLAR DAHA DA DƏRİNLƏŞMƏLİDİR”

## “ELƏ ETMƏLİYİK Kİ, AZƏRBAYCAN İQTİSADİYYATI UZUNMÜDDƏTLİ, GƏLƏCƏKDƏ DAYANIQLI İQTİSADİYYAT KİMİ ÖZÜNÜ GÖSTƏRSİN, NEFTDƏN, QAZDAN ASILILIQ DAHA DA AŞAĞI DÜŞSÜN VƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI SÜRƏTLƏ DAVAM ETDİRİLSİN”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının
sosial-iqtisadi inkişafının yekunlarına və
qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən



“Ötən altı ayın göstəriciləri deməyə əsas verir ki, biz 2018-ci ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrə uğurla nail olacağıq. Bundan sonrakı illərdə Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf etməlidir. Bunu təmin etmək üçün, əlbəttə ki, islahatlar daha da dərinləşməlidir.

Son illər ərzində apardığımız islahatlar öz gözəl bəhrəsini vermişdir. Əgər biz bu islahatları aparmasaydıq, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq hesab edirəm ki, indiki dövrdə biz bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin”.

# MÜNDƏRİCAT


1 Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

2 Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

3 Azexport.az portalına 2018-ci ilin yanvar-iyun aylarında 284, 4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 16

4 "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə müraciətlərin sayında artım müşahidə olunur — səh. 21

5 İxracatçılarla qida təhlükəsizliyinin əhəmiyyəti müzakirə edilmişdir — səh. 24

6 Latviyada "Azərbaycan Ticarət Evi" açılmışdır — səh. 25

7 İxracatçılar Klubunun növbəti iclası keçirilmişdir — səh. 26

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **846,5** milyon ABŞ dolları dəyərində **İXRAC OLMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **110** milyon ABŞ dolları və ya **15%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasında həyata keçirilən uğurlu iqtisadi islahatlar qeyri-neft sektoru üzrə ixracın artmasına müsbət yöndə təsir göstərmişdir. Nəticədə 2017-ci ildə olduğu kimi 2018-ci ildə də qeyri-neft sektoru üzrə ixracda artım tendensiyası müşahidə olunur. Belə ki, 2018-ci ilin yanvar-iyun ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **846,5 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-cı ilin müvafiq dövrü ilə müqayisədə cari ilin birinci yarısında qeyri-neft sektoru üzrə ixrac **110 milyon** ABŞ dolları və ya **15 faiz** artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin ilk 6 ayı ərzində Rusiyaya **319,9 milyon,** Türkiyəyə **180,1 milyon,** Gürcüstana **74,1 milyon,** İsveçrəyə **69,3 milyon** və **Çinə 23,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin birinci yarısında Rusiyaya ixrac 29,4 faiz, Türkiyəyə 25,3 faiz, Gürcüstana 8,5 faiz, İsveçrəyə 3,7 faiz və Çinə 40,6 faiz artmışdır.

2018-ci ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (140 milyon ABŞ dolları) liderliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 60,7 milyon ABŞ dolları) ikinci və elektrik enerjisi (54,6 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Cari ilin birinci yarısında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, qabığı təmizlənmiş meşə fındığı, emal olunmamış aşqarlanmamış alüminium, kartof, pambıq lifi (daranmaya məruz qalmamış), gilas və digər məhsullar da qeyri-neft ixracında önəmli paya sahib olmuşlar.

Ümumiyyətlə 2018-ci ilin yanvar-iyun ayları ərzində meyvə-tərəvəz ixracı **276,7 milyon,** plastmassa və onlardan hazırlanan məmulatların ixracı **71,8 milyon,** alüminium və ondan hazırlanan məmulatların ixracı **69,7 milyon,** qara metallar və onlardan hazırlanan məmulatların ixracı **37,8 milyon,** kimya sənayesi məhsullarının ixracı **30,7 milyon,** pambıq ipliyi ixracı **9,9 milyon** ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ilk 6 ayında elektrik enerjisinin ixracı **2,2 dəfə,** alüminium və ondan hazırlanan məmulatların ixracı **24,4 faiz,** pambıq ipliyinin ixracı **23,3 faiz,** meyvə-tərəvəzin ixracı **20,3 faiz,** plastmassa və onlardan hazırlanan məmulatların ixracı **13,7 faiz,** kimya sənayesi məhsullarının ixracı **4,4 faiz** artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin iyun ayında isə qeyri-neft sektoru üzrə ixrac **179 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında ilk beşlikdə Rusiya (96,7 milyon ABŞ dolları), Türkiyə (25,9 milyon ABŞ dolları), İsveçrə (12,8 milyon ABŞ dolları), Gürcüstan (8,1 milyon ABŞ dolları) və Niderland (5,8 milyon ABŞ dolları) qərarlaşmışdırlar.

2018-ci ilin may ayında olduğu kimi iyun ayında da qeyri-neft sektoru üzrə ixracda tomat (pomidor) **43,2 milyon** ABŞ dolları dəyəri ilə birinci olmuşdur. Cari ilin iyun ayında qeyri-neft sektoru üzrə ixracda albalı və gilas (26,8 milyon ABŞ dolları) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 12,4 milyon ABŞ dolları) isə üçüncü olmuşdur.

Həmçinin 2018-ci ilin iyun ayında kartof, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, emal olunmamış aşqarlanmamış alüminium, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, metanol, qara metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos kompressor boruları qeyri-neft sektoru üzrə ixracında önə çıxmışdır.

2018-ci ilin yanvar-iyun ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

## 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **İYUN AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



**2018-Cİ İLİN YANVAR-İYUN AYLARINDA 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



2018 İXRAC İCMALI İYUL

# 2018-Cİ İLİN **İYUN AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

Pomidor

2018: 43,2
2017: 40,7



Albalı və gilas

2018: 26,8
2017: 15,7



Qızıl

2017: 25,6
2018: 12,4



Kartof

2018: 9,8
2017: 10,9



İlkin formalı polietilen

2018: 7,7
2017: 7,2



2018: 6
2017: 0,86



Emal olunmamış aşqarlanmamış alüminium

2018: 4,6
2017: 3,4



İlkin formalı digər maddələr

2017: 5,2
2018: 3,9



Metanol

2018: 3,5
2017: 2,9



Digər nasos kompressor boruları

2017: 68,5
2018: 61,2



Digərləri

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2018-ci ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

2018-ci ilin birinci yarısında həyata keçirilən qeyri-neft sektoru üzrə ixracla bağlı rəsmi statistik rəqəmlərin təhlili nəticəsində əsas ixracatçı subyektlərin reytinqi tərtib olunmuşdur. "İxrac İcmalı" tərəfindən tərtib edilən bu reytinq həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektləri əhatə edir. 2018-ci ilin yanvar-iyun ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyeklərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Kapitan Fruits" MMC, "Baku Steel Company" MMC, "Food Export Şəmkir" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Azfruittrade" MMC, "Şirin Aqro" QSC, "Sun Food" MMC, İskəndərov Sahib Səməd oğlu.

Qeyd edək ki, 2018-ci ilin yanvar-iyun ayları üzrə tərtib edilən reytinqlə müqayisədə bu dəfəki siyahıda bir neçə şirkətin - "Kapitan Fruits" MMC, "Baku Steel Company" MMC, "Food Export Şəmkir" MMC – mövqeyini möhkəmləndirdiyini müşahidə edirik.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən və bir milyon ABŞ dollarından cox ixrac həyata keçirən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "CTS-Agro" MMC, "Azərbaycan Hava Yolları" QSC, "SOCAR Methanol" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA "AZƏRKOSMOS"** ASC **12,7 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2018 İXRAC İCMALI İYUL



2018-ci ilin birinci yarısında "Azərkosmos" ASC tərəfindən dünyanın **19 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir. "Azərkosmos" ASC-nin 2018-ci ilin iyun ayında dünyanın **14 ölkəsinə** reallaşdırdığı xidmət ixracının dəyəri isə **1,6 milyon** ABŞ dolları olmuşdur.

2018-ci ilin I yarısında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**:

| | |
|---|---|
| Fransa | 5,7 milyon $ |
| Malayziya | 4,2 milyon $ |
| BƏƏ | 740 min $ |
| Almaniya | 476 min $ |
| Gürcüstan | 292 min $ |



2018-ci ilin **YANVAR-İYUN AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **620,4** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri **113** milyon AZN və ya **22,3%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana dünyanın **189** ölkəsindən **1325,0 min** və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə **10,2 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 30,5 faizi Rusiya Federasiyası, 21,1 faizi Gürcüstan, 11,1 faizi İran, 10,8 faizi Türkiyə, 3,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi İraq, 2,0 faizi Ukrayna, 18,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 14,1 faizi yanvar, 12,5 faizi fevral, 20,9 faizi mart, 16,5 faizi aprel, 15,7 faizi may, 20,3 faizi isə iyun ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-iyun aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Belə ki, Körfəz ölkələrindən gələnlərin ümumi sayı 4,9 faiz artaraq 276,6 min nəfər təşkil etmiş və ümumilikdə ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri Körfəz ölkələrindən olmuşdur.2018-ci ilin yanvar-iyun aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 6,3 faiz artaraq 53,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 7,5 faiz artaraq 478,3 min nəfər olmuşdur.

Cari ilin yanvar-iyun aylarında ölkəmizə gələn xarici vətəndaşların sayı 10,2 faiz artsada onların bank kartları vasitəsi ilə xərcləmələrində daha çox artım müşahidə edilmişdir. Belə ki, Mərkəzi Bankın məlumatına əsasən 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **620,4 milyon** manat təşkil etmişdir. Yəni 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **113 milyon** AZN və ya **22,3 faiz** artmışdır.

2018-ci ilin iyun ayında isə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **106,7 milyon** manat təşkil etmiş və ötən ilin iyun ayı ilə müqayisədə **27,3 faiz** artmışdır.

AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon AZN)**

## 2016-cı il

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**
İyun - **74,8**

**Cəmi - 263,4**

## 2017-cı il

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**

**Cəmi - 507,4**

## 2018-cı il

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**
İyun - **106,7**

**Cəmi - 620,4**



3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN BİRİNCİ YARISINDA 284,4 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **İYUN AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **34,2** milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin iyun ayı ərzində Azexport.az portalına **34,2 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2018-ci ilin birinci yarısında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri **284,4 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyun aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **47,6 faiz** artmışdır. Bu isə Azexport.az portalının ötən müddətdə dünya miqyasında daha çox tanınmasından qaynaqlanır.

2018-ci ilin ilk 6 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (18,7%), ABŞ (8,6%), Türkiyə (6,7%), İngiltərə (5,1%) və İran (5,1%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olmuşdurki, cari ilin iyun ayında ən çox ixrac sifarişi şəkər tozu, tütün, şərab, pambıq yağı, nar şirəsi, yerkökü, göbələk, mühərrik yağı, pomidor şirəsi, nar qurusu, qənnadı məhsulları, süd məhsulları, alma, çiyələk, toyuq əti, pomidor qurusu, zəfəran, soğan, duz, fındıq, bitki yağı, albalı, təmizlik vasitəsi,quru süd, meyvə şirəsi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 30 iyun tarixinə kimi (18 ay ərzində) Azexport.az portalına dünyanın 96 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **759,4 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI İYUL

**Son 18 ay ərzindəki sifarişlərin cəmi - 759,4 milyon ABŞ dolları**

AZEXPORT.AZ 2018

## 2017-ci il ərzində

CƏMİ - **475 milyon**

## 2018-ci il üzrə

YANVAR - **81,5 milyon**

FEVRAL - **37,6 milyon**

MART - **66,5 milyon**

APREL - **36,9 milyon**

MAY - **27,7 milyon**

İYUN - **34,2 milyon**

CƏMİ - **284,4 milyon**



# 2018-Cİ İLİN İYUN AYINDA **AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Şəkər tozu



Tütün



Şərab



Pambıq yağı



Nar şirəsi



Yerkökü



Göbələk



Mühərrik yağı



Pomidor şirəsi



Nar qurusu



Buğda kəpəyi



Qənnadı məhsulları



Süd məhsulları



Alma



Çiyələk



# 2018-Cİ İLİN **YANVAR-İYUN AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ






# AZEXPORT.AZ YENİ BEYNƏLXALQ ELEKTRON SATIŞ PORTALLARI İLƏ ƏMƏKDAŞLIĞA BAŞLAMIŞDIR

Azexport.az portalı "Made in Azerbaijan" brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlamışdır.

Portal ziyarətçilərinin əsas hissəsini körfəz və okeaniya ölkələri təşkil edən www.go4worldbusiness.com, Hindistan bazarını əhatə edən www.tradeindia.com, www.indiamart.com və MDB ölkələrində son illərdə aqrar məhsulların satışında ixtisaslaşan www.agrorubo.ru kimi beynəlxalq elektron satış portallarına inteqrasiya edilmişdir. Qeyd olunan portalların ümumi əhatə dairəsi 1,5 milyard istifadəçi təşkil edir.

Azexport.az portalından verilən məlumata görə, yeni portallara inteqrasiya ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanları yaradır və "Made in Azerbaijan" məhsullarının ixracın artmasına töhfə verir. Bu portallara inteqrasiyadan sonra Hindistandan Azərbaycanın meyvə tərəvəz məhsullarına, Körfəz ölkələrindən isə toyuq əti və toyuq yumurtasına daxil olan sorğularda artım müşahidə edilmişdir.

Qeyd edək ki, Azexport.az portalı yarandığı ilk gündən www.alibaba.com, www.all.biz, www.amazon.com, www.agroserver.ru və digər bu kimi portallarla əməkdaşlıq edir və bunun sayəsində Azərbaycan məhsullarına beynəlxalq bazarlardan bu günə kimi 750 milyon ABŞ dollarından artıq sorğular daxil olmuşdur.

Azexport.az portalı bundan sonra da əməkdaşlıq edəcəyi portalların siyahısının genişləndirilməsini nəzərdə tutur.






4

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNƏ MÜRACİƏTLƏRİN SAYINDA ARTIM MÜŞAHİDƏ OLUNUR

2018-ci ilin iyul ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə bir pəncərə prinsipi əsasında ixracla bağlı tələb olunan sertifikatlar verilmişdir. 2018-ci ilin iyul ayında xüsusən ilk dəfə ixraca başlamaq istəyən fiziki və hüquqi şəxslərin məlumat almaq məqsədiylə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə etdikləri müraciətlərdə artım müşahidə olunmuşdur. İxraca Dəstək Mərkəzinin əməkdaşları sahibkarlara ixrac prosedurları ilə bağlı ətraflı məlum vermişlər.

Cari ilin iyul ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə Azərbaycan sahibkarlarının həyata keçirdikləri ixracın dəyəri isə **11,9** milyon ABŞ dollarından çox olmuşdur. Sahibkarlara əsasən pomidor, xiyar, polad pəstah, şirniyyat məhsulu, mahlıc, iplik, pambıq tullantısı, qurğuşun külçələr, ayaqqabı altlıqları, polad boru, polad armatur, qurğuşun külçə, qara metal borular, kərpic, arpa, zəfəran, meyvə şirələri, bağırsaq, çay və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, İran, İtaliya, İraq, Qazaxıstan, Gürcüstan, Ukrayna, İngiltərə, Sinqapur, BƏƏ, Çin, ABŞ və daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Məlumat üçün bildirək ki, 2018-ci ilin 1 iyul tarixindən Qida Təhlükəzsizliyi Agentliyinin nümayəndələri də “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində fəaliyyətə başlamışdır. Artıq sahibkarlar “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edərək həm də Qida Təhlükəsizliyi Agentliyinin verdiyi müvafiq sənədləri əldə edə bilərlər.



# 2018-Cİ İLİN YANVAR - İYUL AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları)







2018-ci ilin yanvar - iyul aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏRİN SİYAHISI



5

# İXRACATÇILARLA QİDA TƏHLÜKƏSİZLİYİNİN ƏHƏMİYYƏTİ MÜZAKİRƏ EDİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və Qida Təhlükəsizliyi Agentliyinin birgə təşkilatçılığı ilə "İxrac əməliyyatlarında qida təhlükəsizliyinin əhəmiyyəti və rolu" mövzusunda seminar keçirilmişdir.

Tədbirin məqsədi qida zəncirinin bütün mərhələlərində iştirak edən hər bir biznes subyektinin ixrac əməliyyatlarının həyata keçirilməsi zamanı qarşıya çıxan çətinliklərin və mübahisəli halların həll edilməsi istiqamətində maarifləndirməni təmin etməkdən ibarət olmuşdur. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri bildirmişdir ki, ölkəmizdə qida təhlükəsizliyi ilə bağlı vahid dövlət siyasəti, dövlət tənzimləməsi və nəzarəti həyata keçirilir. Azərbaycanda qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması, onların sanitariya, gigiyena, baytarlıq və fitosanitar norma və qaydalarına əməl etməsi ixrac prosesində də mühüm əhəmiyyətə malikdir.

Tədbirdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədr müavini Balarəhim Quliyev bildirmişdir ki, son illər həyata keçirilən islahatlar Azərbaycanın kənd təsərrüfatı və qida sənayesi sektorları üzrə ixracatın inkişafına mühüm töhfəsini verir, daxili və beynəlxalq bazarlarda istehlakçıların ehtiyaclarına cavab verən yüksək keyfiyyətli və təhlükəsiz məhsulların istehsalına köməklik göstərir.

Tədbir zamanı AQTA-nın Sertifikatlaşdırma və qeydiyyat şöbəsinin müdiri Nübar Hüseynli qida sahəsi üzrə ixrac prosesində tələb olunan sertifikatlar, onları əldə etmək üçün müraciət formaları, tələb olunan sənədlər barədə ixracatçı sahibkarları məlumatlandırıb və qida məhsullarının istehsalının bütün mərhələlərində onların daşıdığı risk səviyyəsi, risklərin təhlili və risk əsaslı dövlət nəzarətinin həyata keçirilməsindən danışmışdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmış və onlarla əməkdaşlıq imkanları müzakirə edilmişdir.






# 6

# LATVİYADA "AZƏRBAYCAN TİCARƏT EVİ" AÇILMIŞDIR

İyulun 23-də Latviyanın paytaxtı Riqada Azərbaycan Ticarət Evi açılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığının icrası olaraq İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Latviya bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, Latviyada satışını təşkil edəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunmuşdur. Daimi fəaliyyət göstərəcək sərgidə Azərbaycan şirkətlərinin istehsal etdiyi 70 çeşidə yaxın şərab məhsulları, 26 çeşiddə konyak, 10 çeşiddə araq, 26 çeşiddə çay, 23 çeşiddə meyvə şirələri və kompotlar, 70 çeşiddən çox digər məhsullar, o cümlədən bitki yağları, zeytun, fındıq, düyü, meyvə-tərəvəz, tekstil və kosmetik məhsullar, sənaye malları, turizm xidmətləri nümayiş olunur. Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Latviyada Azərbaycan Ticarət Evinin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Latviyada Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulamışdır.

Latviya Respublikasının Azərbaycan-Latviya hökumətlərarası komissiyanın həmsədri, Latviyanın nəqliyyat naziri Uldis Auqulis Riqada Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu bildirmişdir.

Tədbir çərçivəsində Azərbaycanın "Kaslar" MMC və "Bina Aqro" MMC şirkətləri ilə Latviya şirkətləri arasında Azərbaycan istehsalı olan məhsulların Latviyaya ixracına dair Anlaşma Memorandumları imzalanmışdır.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olmuşlar.






# 7

# İXRACATÇILAR KLUBUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

İyulun 20-də İqtisadiyyat nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə İxracatçılar Klubunun növbəti iclası keçirilmişdir. Tədbirdə müsabiqə yolu ilə seçilmiş tikinti məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 20-ə yaxın şirkətin nümayəndəsi iştirak etmişdir.

İclasda AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev iqtisadiyyatın şaxələnməsinin və qeyri-neft sektorunun inkişafının prioritet istiqamət olduğunu, sahibkarlığın qeyri-neft sektorunun inkişafında aparıcı rol oynadığını vurğulamışdır.

Bildirilmişdir ki, "Made in Azerbaijan" brendinin təşviqi istehsalın artırılması, ixracın coğrafiyasının və həcminin genişləndirilməsində əsas rol oynayan mexanizmlərdəndir.Tikinti sənayesinin qeyri-neft sektorunun mühüm sahələrindən olduğunu qeyd edən Yusif Abdullayev cari ilin sentyabr ayında Qazaxıstanın Almata şəhərində keçiriləcək "KazBuild 2018" tikinti materialları sərgisi barədə danışmışdır. Diqqətə çatdırılmışdır ki, bu istiqamətdə rəqabətqabiliyyətli məhsul istehsalı və ixracın genişləndirilməsi məqsədi ilə beynəlxalq sərgilərdə iştirak xüsusi ilə əhəmiyyətlidir.

Sonra İxracatçılar klubunun icraçı direktoru Zöhrab Qədirov çıxış edərək "KazBuild 2018" sərgisi haqqında ətraflı məlumat vermişdir. Tədbir çərçivəsində sahibkarlarla sərgidə iştiraka dair müzakirələr aparılmışdır.



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində  N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org

